## *General Hikmət Mirzəyev:*

# Biz öz haqqımızı geri qaytardıq

**Azərbaycanın 2020-ci il noyabrın 8-də sıldırım qayalıqlar üzərində qərar tutmuş Şuşa şəhərini erməni işğalından azad etməsi dünya hərb tarixi üçün böyük bir hadisə oldu. Xüsusi təyinatlı birləşmələrimizin olduqca məxfi şəkildə həyata keçirdiyi bu əməliyyat dünyaya səs saldı, xarici ölkə mətbuatının nəzərini cəlb etdi.**



Elə həmin günlərdə Fransanın “Le Monde” qəzeti yazırdı ki, Qarabağ münaqişəsinin açarı olan Şuşa döyüşü ən şiddətli məqamına çatmaqdadır: “Azərbaycan qüvvələri 27 sentyabr hücumunun əsas məqsədi olan tarixi şəhərə çatdılar. Orada döyüşlər onların xeyrinə davam edir. Şuşanın müdafiəçiləri (ermənilər – red.) paramparçadır. Hərbi təcili tibb maşınlarının arxasında üst-üstə yığılıblar. Stepanakertə qan içində, son nəfəslərində olan onlarla yaralı əsgər gəririlir. Digər erməni əsgərləri dağdan dəhşət və qorxu içərisində üzüaşağı qaçırlar...”

Qeyd olunurdu ki, yolboyu snayper və artileriya atəşləri altında erməni əsgərlərin tələm-tələsik tərk etdikləri əşyalar gözə dəyir: “Bu, darmadağın olunma gününə çox bənzəyir. Stepanakertdə (Xankəndi – red.) hakimiyyətin inkar etməsinə baxmayaraq, 6 noyabr cümə günündən etibarən döyüş Azərbaycanın xeyrinə dəyişməyə başlayıb. Bir həftədir ki, azərbaycanlılar Şuşanın bir top atışı məsafəsində olan qapılarına dirəniblər. Əsas cəbhə Daşaltı kəndinin yuxarı meşələrində donub qalıb, orada döyüşlər çox sərt şəkildə baş verir. Üç gün ərzində Azərbaycanın xüsusi təyinatlı qüvvələri Şuşaya aparan yola şəhər müdafiəçilərinin gücünü yoxlamaq üçün gecə basqınları ediblər. Məhz bu hücumlara görə Xankəndini İrəvana bağlayan əsas yol 4 noyabrdan etibarən bağlanıb. Bu şəhər hər iki icma tərəfindən Qarabağın Qüdsü (Yerusəlim) hesab edilir və dini-siyasi simvolu (rəmzi) çox böyükdür, digər tərəfdən, bu şəhər Xankəndinə baxan və nəzarət edən strateji əhəmiyyətini qoruyub saxlayır”.

Qəzet sonrakı günlərdə yazırdı: “Azərbaycanlılar Şuşaya çatıblar, küçələrdə “Kalaşnikov”larla döyüşlər gedir”, bunu Xankəndində əlillər üçün arabada oturmaqdan imtina edən və ayağından yaralanan, bağırmamaq üçün çənəsini tutmuş əsgər deyir. Bu yaralı əsgərin ətrafında xaos hökm sürür. Bu ərəfədə güllə yarası almış daha 7 nəfəri gətirən yük maşını gəlir. Düzdür, bomba zərbələri çox şiddətlidir, lakin yaralıların halı göstərir ki, əsasən qısa məsafədə, üzbəüz döyüşlər gedir. Təcili yardım maşınları saysız-hesabsız gedişgəliş edirlər. Yaralı əsgərlər bir-birinin üzərinə qalaq-qalaq yığılıb".

Bunlar, Fransa qəzetinin birbaşa hadisə yerindən – döyüş meydanından yazdıqlarıdır. Azərbaycanda isə Şuşa əməliyyatı haqqında ətraflı məlumat bir qədər sonra verildi. Amma noyabrın 8-də Prezident İlham Əliyev Bakıdakı Şəhidlər xiyabanından xalqa müraciətində bəyan etdi ki, Şuşa azad edilib. Bu xoş xəbər bir anda bütün Azərbaycanı ayağa qaldırdı. İnsanlar küçələrə, meydanlara axışaraq qürur və böyük sevinc hisslərini paylaşır, bir-birinə gözaydınlığı verirdilər. Prezident deyirdi: “Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!”

Prezident İlham Əliyevin həmin gün böyük qürur və həyəcan hissi ilə səsləndirdiyi bu ifadələr bu gün də qulaqlarda əks-səda verir. Bununla da, 2020-ci ilin 8 noyabrı şanlı Qələbəmiz – Zəfər günü kimi Azərbaycanın tarixinə əbədi həkk olundu. Prezident həmin günü özünün sərəncamı ilə “Zəfər günü” elan etdi.

Şuşa fatehlərinin adları ilə də sonradan tanış olduq. Məlum oldu ki, bütün dünyanı mat qoymuş, sonradan hərbi dərsliklərə düşərək tədris olunan bu möhtəşəm əməliyyatı planlaşdıran və uğurla həyata keçirən Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin komandanı general-leytenant Hikmət Mirzəyev və onun yenilməz, qorxmaz qartalları olub. 29 fevral 1968-ci ildə Biləsuvar rayonunda anadan olmuş Hikmət İzzət oğlu Mirzəyev peşəkar hərbçidir, Birinci Qarabağ müharibəsində iştirak edib, xüsusi təyinatlı taborun üzvü olub. 1992-ci ildə bir sıra döyüşlərdə, Fərrux yüksəkliyinin azad edilməsində kapitan rütbəsində, hərbi birliyin kəşfiyyat bölüyünün komandiri kimi döyüşüb. O, 19 yanvar 2002-ci ildə ulu öndər Heydər Əliyevin sərəncamı ilə general-mayor ali hərbi rütbəsinə layiq görülüb. 17 oktyabr 2020-ci ildə isə Prezident İlham Əliyev general-mayor Hikmət Mirzəyevə general-leytenant ali hərbi rütbəsi verib. O, həm də "İgidliyə görə" medalı, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunub.

Hikmət Mirzəyev 2016-cı ilin məşhur Aprel döyüşlərinə və 2020-ci ildə Dağlıq Qarabağda aparılmış bir sıra hərbi əməliyyatlara rəhbərlik edib. O, 27 il işğal altında olmuş Cəbrayıl rayonunun azad edilməsi əməliyyatını uğurla başa çatdırıb.

Hikmət Mirzəyev müasir hərb tariximizin ən görkəmli simalarındandır. O, dünyada böyük ajiotajla qarşılanmış Şuşa əməliyyatı haqqında danışarkən deyib: “Əməliyyatda mənim tərəfimdən bəzi xüsusi tələblər qoyulmuşdu. İçimizdə daim bir hiss, bir inam vardı ki, biz Şuşanı azad edəcəyik. O inam sonadək bizi tərk etmədi. Mən hətta bir çox rəhbərlərə də əməliyyatların başlanması anından bəlkə də bir neçə saat sonra məruzə etmişdim ki, hansı vaxtda biz oranı ələ keçirəcəyik”.

Xüsusi Təyinatlı Qüvvələrin komandanı kimi Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasında xüsusi xidmətlər göstərmiş Hikmət Mirzəyev bu fədakarlığına görə Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə Vətən Müharibəsi Qəhrəmanı adına layiq görüldü. General “Şuşa, sən azadsan!” sənədli filmində çıxışı zamanı bildirib ki, Hadrut və Füzulini ələ keçirdikdən sonra gecə-gündüz yerdən və havadan Şuşanın kəşfiyyatını aparıblar: “Əməliyyatın ilk günü tam əmin idim ki, Şuşanı təmizləyəcəyik. Hətta mən bununla bağlı Müdafiə Nazirliyində bir-iki nəfərlə söhbət etmişdim. Vətən müharibəsində XTQ-nin həlledici rolu və tarixə düşəcək əfsanəvi şücaəti danılmazdır. Şəxsi heyətimiz bütün risklərə hazır idi və bunu göz önünə alaraq düşmənin edə bilməyəcəyi hərəkətləri həyata keçirdilər. Mənim planda nəzərdə tutduğum bütün fəaliyyətləri sözsüz, dəqiqliklə və vaxtında icra etdilər. Şəxsi heyət bununla bağlı inanılmaz və əfsanəvi bir qəhrəmanlıq ortaya qoydu”.

... Və Hikmət Mirzəyevin qartalları, Prezident İlham Əliyevin təbirincə desək, sıldırım qayalara dırmaşaraq, böyük qəhrəmanlıq, şücaət göstərərək Qarabağın incisini, göz bəbəyini azad etdilər. Dövlətimizin başçısı, Ali Baş Komandan sonradan Şuşada səfərdə olarkən demişdi: “Şanlı müharibəmizə Şuşa şəhərində yekun vuruldu. Noyabrın 8-də Şuşa şəhərinin azad edilməsi tarixi nailiyyətimizdir. Şuşa işğal altına düşmüş birinci şəhərimiz idi və işğaldan azad edilən sonuncu şəhər oldu. Şuşa işğaldan azad edildən sonra düşmənin beli qırıldı, düşmən təslim olmağa məcbur qaldı. Şuşanın azad edilməsi tarixi hadisədir. Bizim Ordumuz, qəhrəman övladlarımız dağlardan, dərələrdən, meşələrdən, cığırlardan keçərək, sıldırım qayaları qət edərək, qayalara dırmaşadırmaşa Şuşaya qalxaraq orada əlbəyaxa döyüşdə düşməni məhv etdi, Azərbaycan bayrağını Şuşada qaldırdı”.

General Hikmət Mirzəyev isə planlaşdıraraq uğurla həyata keçirdiyi əməliyyatın nəticəsi haqqında danışaraq demişdi: “Şuşaya girəndə özümü çox xoşbəxt hiss etdim. O vaxta kimi daim əziyyət çəkirdim. Orda bir vicdan rahatlığı hiss etdim, mənə böyük bir rahatlıq gəldi. Baxmayaraq ki, şəhidlərimiz, yaralılarımız, itkilərimiz oldu. Ancaq Şuşanın alınması bütün millət üçün başucalığı idi. Biz öz haqqımızı geri qaytardıq. Biz təkcə Şuşanı geri almadıq, Azərbaycanın namusunu, qeyrətini, şərəfini geri qaytardıq”...

**Paşa ƏMİRCANOV,**
**“Xalq qəzeti”**